# Müasir Azərbaycan, müasir Qəbələ

## Real siyasətin nümunəsi

**(Əvvəli qəzetimizin 29 noyabr 2014-cü il tarixli sayında).**

Əldə edilən qələbələrdə Qəbələnin, Qəbələ əhalisinin xüsusi payı vardır. Cənab Prezident İlham Əliyev yuxarıda qeyd etdiyimiz kimi respublikanın bütün regionlarının sürətli və tarazlı inkişafına xüsusi diqqət yetirmişdir. Bu baxımdan regionların sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə hər 5 il üçün ayrıca olaraq Dövlət Proqramı haqqında sərəncam imzalamışdır. Proqramların icrasına nəzarəti öz üzərinə götürmüşdür. Cənab Prezident bu məqsədlə 10 il ərzində bütün regionlarda olmaqla yanaşı təkcə 9 dəfə Qəbələyə gəlmişdir. 2010-cu və 2013-cü illərin hər birində 2 dəfə Qəbələyə rəsmi səfər etmiş, Dövlət Proqramlarının icrası vəziyyəti ilə tanış olmuş, bir daha bu proqramların geniş miqyasda icrası üçün öz dəyərli məsləhətlərini və təkliflərini vermiş, əlavə tədbirlər haqqında sərəncamlar imzalamışdır.

Qəbələlilər yaxşı bilir ki, cənab Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi illər ərzində ən çox diqqət yetirdiyi regionlardan biri də Qəbələ rayonu olmuşdur. Prezident tərəfindən Qəbələyə xüsusi qayğı əlbəttə, ümummilli lider Heydər Əliyevin Qəbələ haqqında təşəbbüslərinin müdafiəsi, icrası naminə göstərilmişdir. Çünki ulu öndər hələ 2002-ci ildə Qəbələdə rəsmi səfərdə olarkən bu rayonda turizmin inkişafı üçün böyük potensial imkanlar olduğunu söyləmişdir. Qəbələnin eyni zamanda çox qədim tarixi bir məkanda yerləşdiyi də diqqətdən yayınmamışdır. Xatırladaq ki, Qəbələ eramızdan əvvəl və bizim eranın əvvəllərində qədim Alban dövlətinin 900 ilə qədər paytaxt şəhəri olmuş, dövrün ən inkişaf etmiş şəhərləri ilə siyasi və ticari əlaqələr yaratmışdır. Bu baxımdan tarixi faktlar göstərir ki, həmin şəhər Şərqlə Qərb arasında strateji cəhətdən çox əlverişli bir məkan hesab olunmuşdur. İndi ölkə başçısının rəhbərliyi, diqqət və qayğısı sayəsində Qəbələ son 10 ildə əvvəllər heç kəsin düşünə bilmədiyi və ağlasığmaz bir sürətlə inkişaf etmişdir.



Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları və bu proqramların daha geniş bir çərçivədə icrası bu gün Qəbələni beynəlxalq turizm mərkəzinə çevirməkdədir.

Möhtərəm Prezidentin Qəbələyə hər səfəri zamanı burada yeni-yeni turizm obyektlərinin, sənaye müəssisələrinin, sosial obyektlərin, müasir standartlara uyğun magistral yolların, dağ çayları üzərində 7-10 aşırımlı neçə-neçə körpülərin açılışı şəhərin sürətlə böyüməsinə, demək olar ki, bütün kəndlərin abadlaşmasına gətirib çıxarmışdır.

Hazırda Qəbələdə tikilən beşulduz, üçulduz otellər, hər cür əyləncələrlə zəngin olan parklar ildən-ilə Qəbələyə gələn turistlərin sayını artırır.

Son 5 ildir ki, Qəbələdə ardıcıl olaraq möhtəşəm beynəlxalq musiqi festivalları, incəsənət tədbirləri, elmi konfranslar keçirilməkdə davam edir. Qəbələ 2013-cü ildə MDB məkanına daxil olan ölkələrin mədəniyyət paytaxtı elan olunmuşdur. Gözəl təbiəti, əlverişli coğrafi şəraiti olan Qəbələdə çoxsaylı turizm obyektləri, mehmanxanalar, istirahət və sağlamlıq mərkəzləri tikilmişdir. Cənab Prezident Qəbələdə beynəlxalq hava limanının, olimpiya idman kompleksinin, beşulduzlu "Qafqaz Resort", "Qafqaz Riverside", "Qafqaz Sport", otellərinin, bir neçə istirahət və sağlamlıq mərkəzlərinin, habelə üçulduzlu "Qəbələ", "Qafqaz Qəbələ City" otellərinin, "Karvansaray" otel kompleksinin, "Tufan dağ-xizək yay-qış istirahət kompleksi"nin, "Qolf Resort", "Aqua Park" istirahət və idman mərkəzlərinin və digər onlarla obyektlərin açılışında iştirak etmiş, tikilməkdə olan obyektlərdə inşaat işlərinin gedişi ilə tanış olmuşdur. Konkret olaraq desək, rayonda turizmi inkişaf etdirmək məqsədilə 19 yeni mehmanxana və istirahət mərkəzi yaradılmışdır.

Son 10 il ərzində 11.166 yeni iş yerləri açılmış, bunların 9.118-i daimi iş yeridir. Qeyd olunan müddət ərzində rayonda ümumi məhsul istehsalı 5 dəfə, sənaye məhsulu 6,8 dəfə, kənd təsərrüfatı istehsalı 1,7 dəfə, pərakəndə ticarət dövriyyəsi 2,3 dəfə, əhaliyə pullu xidmətlərin həcmi 5,2 dəfə, iaşə dövriyyəsinin həcmi 24,2 dəfə artmışdır. Sahibkarlığın inkişafına xüsusi qayğı göstərilmişdir. Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən rayon üzrə 432 sahibkara 28,9 milyon manat məbləğində güzəştli kredit verilmişdir. Mənzil tikintisində, magistral və daxili yolların yenidən qurulmasında, təmirində, rabitə və poçt xidmətində, nəqliyyatın yük daşımalarında, digər bütün sahələrdə nəzərə çarpacaq irəliləyişlər olmuşdur.

Artıq Qəbələ nəinki yaxın ölkələrdə, hətta, Avropa və Asiyanın, digər qitələrin ən böyük şəhərlərində tanınan və sürətlə inkişaf edən bir şəhərə çevrilmişdir. Bu şəhərə hər il dünyanın müxtəlif ölkələrindən gələn turistlər, beynəlxalq tədbirlərdə iştirak edən mədəniyyət və incəsənət xadimləri, dövlət xadimləri, iş adamları, bölgəmizin təbii gözəlliklərinə, insanlarının mehribanlığına, qonaqpərvərliyinə, sürətli sosial-iqtisadi inkişafa, tərəqqiyə öz heyrətlərini gizlədə bilmirlər.

Bütün bunlar yaxın gələcəkdə Qəbələnin qədim şöhrətinin özünə qaytarılmasından xəbər verir. Bu inkişaf, bu tərəqqi bütün qəbələlilərin ürəyincədir. Məhz ona görə də qəbələlilər ötən prezident seçkilərində İlham Heydər Oğlu Əliyevi ən yüksək üstünlüklə dəstəkləmiş və onun yenidən ölkə Prezidenti seçilməsini müdafiə etmişlər. Qəbələlilər artıq yaxşı başa düşür ki, İlham Əliyev bu inamı, bu etibarı bundan sonra da cəsarətlə doğruldacaqdır. Bütün bu qələbələr, zəfərlər qarşıdakı daha böyük nailiyyətlərin, daha yüksək səviyyəli gələcəyin, firavanlığın rəhnidir, əsasıdır.

**Nadir ATAKİŞİYEV.**

## «Qadınlara qarşı zorakılığa yox deyək» layihəsinin nəticələrinə dair tədbir

Ötən ayın 25-də Qadınlara qarşı Zorakılıqla Mübarizə Günü ilə bağlı «16 günlük fəallıq» kompaniyasına başlanmışdır. «ÜNS» Yaradıcılıq Səhnəsində kampaniya ilə bağlı «Qadınlara qarşı zorakılığa yox deyək» layihəsinin yekunlarına həsr olunmuş tədbir keçirilmişdir. Qeyd edək ki, layihə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), BMT-nin Əhali Fondu (UNFPA), bu qurumun qaçqınlar üzrə Ali Komissarlığı və İnkişaf Proqramı, Beynəlxalq Miqrasiya Təşkilatı Rasional İnkişaf Uğrunda Qadınlar Cəmiyyəti tərəfindən birgə həyata keçirilmişdir.

Qadınlara qarşı törədilən zorakılıq hallarının səbəblərindən danışan AQUPDK-nin sədri Hicran Hüseynova qeyd etmişdir ki, zorakılığın əsas səbəblərini yoxsulluq, qadının maddi və psixoloji asılılığı, ailə mədəniyyətinin aşağı səviyyədə olması, erkən nikahlar, qadınların öz hüquqlarını bilməmələri, formalaşmış yanlış stereotiplər və sair amillər təşkil edir. Zorakılığın qarşısını almaq üçün əsas şərtlər qadın hüquqlarının müdafiəsi, qadınlara öz hüquqlarından istifadə etmələri üçün geniş imkanların yaradılması, qadın və kişilər arasında de-fakto bərabərliyə nail olunmasıdır.

Tədbirdə yuxarıda qeyd olunan təşkilatların və digər nümayəndələrin çıxışlarında da Azərbaycanda bu istiqamətdə sistemli şəkildə tədbirlər həyata keçirildiyi diqqətə çatdırılmışdır. Lakin məsələnin tamamilə aradan qaldırılması mümkün olmasa da, hər bir cəmiyyətdə bu hallara qarşı mübarizə aparılmalıdır. Çünki zorakılıq hər bir cəmiyyətin həm iqtisadi, həm sosial tərəfdən inkişafına, milli-mənəvi dəyərlərin qorunmasına mənfi təsir göstərir.

Eyni zamanda tədbirdə vurğulanmışdır ki, zorakılığa qarşı mübarizədə vətəndaş cəmiyyətinin də rolu böyükdür. Cəmiyyətin özü də bu sahədə fəallıq göstərməli, belə halların baş verməməsi üçün səylər artırılmalıdır.